*UOT 37.0*

***Aidə Rasim qızı Xanbutayeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dillər Universiteti*
https://orcid.org/0000–0002–8872 - 0023

# ONLAYN TƏHSİLDƏ OXUYUB ANLAMA STRATEGİYALARI

***Аида Расим гызы Ханбутаева***
*докторант по программе доктора философии*
*Азербайджанский Университет Языков*

# СТРАТЕГИИ ПОНИМАНИЯ ПРОЧИТАННОГО В ОНЛАЙН-ОБРАЗОВАНИИ

***Aida Rasim Khanbutayeva***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan University of Languages*

# READING COMPREHENSION STRATEGIES IN ONLINE EDUCATION

**Xülasə.** Mürəkkəb və çoxkomponentli proses olan oxuyub anlama oxucu ilə mətn arasında effektiv əlaqədir. Məqalədə onlayn təhsil formasında oxuyub anlama prosesinin məqsəd və strategiyaları təhlil edilmiş, rəqəmsal əsrdə oxu bacarığının inkişaf etdirilməsində texnologiyaların rolu və prinsipləri araşdırılmışdır.

***Açar sözlər:*** *qavrama, onlayn təhsil, strategiyalar, semantik xəritəçəkmə, sual-cavab münasibətləri*

**Резюме.** Являясь сложным и многокомпонентным процессом, чтение и понимание представляет собой эффективную связь между читателем и текстом. В статье проанализированы цели и стратегии процесса чтения-понимания в онлайн-образовании, исследованы роли и принципы технологий в развитии навыков чтения в цифровую эпоху.

***Ключевые слова:*** *понимание, онлайн-обучение, стратегии, семантическое отображение, вопросно-ответные отношения*

**Summary.** Being a complex and multicomponent process, reading - comprehension is an effective connection between the reader and the text. In the article, the goals and the strategies of this process were analyzed in online education, the roles and the principles of technologies in the development of reading skills were investigated in the digital era.

***Key words:*** *understanding, online training, strategies, semantic display, question-answer relations*

Oxuyub-anlama qarşılıqlı əlaqənin çox komponentlərini özündə birləşdirən mürəkkəb bir prosesdir. Bu komponentlər əvvəlki biliklər, oxu strategiyası, mətn, mövzuya maraq və mətn növləri haqqında biliklərdir. Oxuyub-anlama oxucuların yazılı mətnin mənasını anlamaq bacarığı və bu zaman nəzərdə tutulan nəticəni əldə etmək üçün oxucu ilə mətn arasında effektiv qarşılıqlı əlaqədir.

Məqalədə oxu bacarığının məqsədləri və onlayn şəkildə oxuyub anlama strategiyalarının aşılanması və tədris prosesində istifadə olunan üsulların araşdırılması təşkil edir.

Oxu bacarığının strategiyaları haqqında danışmazdan əvvəl onun məqsədləri haqqında danışmaq istərdik. Həmin məqsədlər aşağıdakılardan ibarətdir:

1. Sadə məlumat axtarmaq üçün oxumaq. Bu növ oxu ümumi oxu bacarığı olub, idrakla sıx bağlıdır.

2. Gözdən keçirmək üçün oxumaq. Bu, mahiyyət etibarilə, mətndə vacib məlumatın ha-

rada ola biləcəyini təxmin etmək üçün strategiyaların birləşməsini və sonra ümumi fikir formalaşana qədər mətnin həmin seqmentlərində əsas oxuyub-anlama bacarıqlarından istifadə etməyi əhatə edir.

3. Öyrənmək üçün oxumaq – akademik və peşəkar mətnlərdəki bir sıra detalları yadda saxlamaq və mətni oxucunun bilik bazası ilə əlaqələndirmək bacarığını tələb edir.

4. Məlumatı inteqrasiya etmək, mətnləri yazmaq və tənqid etmək üçün oxumaq. Bunlar bir-birini tamamlayan, dəstəkləyən və ya ziddiyyətli məlumatların nisbi əhəmiyyəti haqqında əlavə qərar tələb edən məqsədlərdir.

5. Ümumi məzmunu başa düşmək üçün oxumaq. Bu oxu fəaliyyətində əsas və dəstəkləyici ideyaları məqsədyönlü şəkildə qavramaq və əvvəlki biliklərlə əlaqələndirmək əsas rol oynayır.

Oxuyub-anlamanın öyrədilməsi strategiyaları tədris prosesində əhəmiyyətli rol oynayır. Bu strategiyalara konseptual olaraq Semantik Xəritəçəkməni (SX) misal göstərə bilərik. SX tələbələrə xəritə şəklində əlaqəli söz və ya ifadələr yaratmaqla lüğəvi biliklərini tədqiq etməyə imkan verən tədris strategiyalarından biridir. Belə ki, o, tələbələrə mətnin məzmunu haqqında məlumatları müxtəlif kateqoriyalara ayırmağa, geniş mövzular haqqında cümlələr qurmağa kömək edir (1, s.50).

Bu strategiya tələbələrə ideya və ya konsepsiya ilə bağlı atributları təsvir etmək və bu elementlər arasındakı əlaqələri göstərmək şansı vermək üsuludur. Semantik xəritəçəkmənin hazırlanması prosesi həmçinin "hörümçək toru" kimi də tanınır və tələbələrin biliklərini aktivləşdirmək üçün istifadə olunur. Onlayn dərslərdə bu üsuldan istifadə dərsin keyfiyyətinin artırılmasına və tələbələrin motivasiya olunmasına zəmin yaradır.

Digər strategiya isə "ucadan düşün" (Think-aloud) strategiyası olub, tələbələrin oxuduqları zaman fikirlərini ifadə etmələrini göstərir. Mətni oxumaqla onu dərk etmək arasındakı fərqi müəyyən etməyə xidmət edən "Ucadan düşünmək" tələbələrə fikirlərini şifahi şəkildə ifadə etmək şansı verir. O, həmçinin müəllimlərə proqnozlaşdırma və vizuallaşdırma kimi strategiyalardan istifadəyə də kömək edir. "Ucadan düşün" proqramının məqsədi tələbələrin mətndən daha əhəmiyyətli məlumatları xatırlaya bilməsi, onlardan oxuyarkən düşündüklərini yüksək səslə söyləmələrini və müəllimlərin və ya digər tələbələrin qeyd etdiyi suallara cavab vermələrini tələb edir (2, s.28).

Növbəti strategiya eskizdən eskizə (sketch to sketch) strategiyasıdır. Bu, bədii qabiliyyətlə bağlı olub, əsas məqsədi tələbələrin mətnin məzmununu qavramasına nəzarət etmək, tələbələrin öz fikirlərini ifadə etmək üçün mətn təsviri və ya qeydlər şəklində eskizlərdə bədii ifadə vasitələrindən istifadə etməklə şərh etdikləri strategiyadır.

Sual-Cavab Münasibətləri (Question-Answer Relationships – QAR) tələbələrin oxuma və suallara cavab vermə üsullarına yanaşmasını aydınlaşdırmaq üçün işlənib hazırlanmış oxuyub-anlama strategiyasıdır. Bu strategiya tələbələrə suallara cavab verərkən məlumat mənbəyi tapmaqda kömək etmək üçün 1983-cü ildə Taffi Rafael tərəfindən hazırlanmışdır (3, s. 517). Bu onlayn dərs zamanı yalnız həyata keçirilməsi mümkün olan strategiyalardan ən əhəmiyyətlisidir. Məhz bu münasibətlər vasitəsilə oxunulan mətnin anlaşılması və söz ehtiyatına malik olma səviyyəsi müəllim tərəfindən müəyyənləşir.

Onlayn təhsil prosesində tələbələrin mətni oxuyub qavramaq bacarığı ənənəvi təhsildən çox fərqlidir. Ənənəvi təhsildə tələbələrə tənqidi oxu təşviq edilsə də, onlayn dərslərdə onlar mətni daha çox yalnız hərfi oxu və şərh səviyyəsində qavraya bilirlər. Eyni zamanda, SX strategiyasından istifadə etməklə, tələbələrin əvvəlki bilikləri ilə mətndə verilən məlumat arasındakı əlaqəni müəyyənləşdirmək olur.

XXI əsrin başlanğıcında multimedia və internet dil öyrənmənin bütün aspektlərində mühüm yer tutmağa başladı. Təhsil modelləri əsasən müəllim mərkəzli sinif otaqlarından tələbəyönlü, fəal və əməkdaşlıq əsasında öyrənmə mühitlərinə doğru dəyişdi.

Hal-hazırda oxuyub-anlamanı həyata keçirtmək üçün e-Lüğətlərdən geniş istifadə olunur. Bu lüğətlər vasitəsilə mətndəki naməlum sözlər qeyd edilir və qısa zaman kəsiyində həmin sözlərin tərcüməsi tapılır və bu, onların öyrənilməsi prosesini daha səmərəli və effektiv edir (4, s.19).

Rəqəmsal əsrdə oxunun inkişafında texnologiyalardan istifadə mühüm rol oynayır. Oxu-

nun anlanması üçün multimedia mətnlərindən istifadə geniş yayılmaqdadır. Onlayn texnologiyanın əlçatanlığı sözün tanınmasını sürətləndirmişdir. Bu gün milyonlarla sözün mənasına, mənşəyinə, orfoqrafiyasına, audio tələffüzünə, nümunə cümlələrə asanlıqla "Cambridge, Oxford, Macmillan və Dictonary.com" və s. saytlara ödənişsiz daxil olmaqla bilgi əldə etmək olur. Bununla yanaşı "WordReference.com" kimi fərdi həvəskarlar tərəfindən yaradılmış lüğətlər də mövcuddur. Müşahidələr göstərir ki, tələbələrin əksəriyyəti ikidilli lüğətlərə üstünlük verirlər. Əksər onlayn lüğətlərdə mövcud mobil texnologiyaların hər yerdə olması səbəbindən mobil cihazlarda (smartfon və ya planşet) quraşdırılacaq proqram versiyaları da mövcuddur. Müxtəlif leksik məlumatları təmin etməklə yanaşı, e-lüğətlər digər funksiyalarla da təchiz edilmişdir: videolar, tərcümə, sözlər, ifadələr və ya cümlələr və s.

Pandemiya dövründə məsafədən təhsil prosesində mobil cihazlarda mövcud olan WhatsApp və ya WeChat kimi bəzi məşhur sosial ünsiyyət vasitələrindən tələbələrlə qarşılıqlı əlaqədə çox geniş istifadə olundu. Bu tətbiq halhazırda da geniş vüsət alıb. Dil öyrənilməsini asanlaşdırmaq üçün mobil kommunikasiya texnologiyalarının bu cür innovativ istifadəsi, xüsusən də leksik bacarıqların öyrədilməsi müəllimlər və tələbələr arasında durmadan populyarlıq qazanır.

Onlayn mühitdə oxunun inkişafı ilə yanaşı, onun qavranması da mühüm əhəmiyyət kəsb edir.

V. Grabe oxu bacarıqlarını aşağı və daha yüksək səviyyəli proseslər kimi ümumiləşdirir. O, aşağı səviyyəli proseslərə sözün avtomatik tanınması bacarıqları, leksik-sintaktik emal, yüksək səviyyəli prosesə isə daha çətin mətnləri başa düşmək üçün əsas fikirlərin müəyyən edilməsi, əlaqəli və tematik məlumatların tanınması, nəticə çıxarma, kontekstdən istifadə etməklə oxunun situasiya modelinin yaradılması kimi strategiyalardan istifadəni aid edir (5).

Onlayn oxunun tədrisində CMC texnologiyalarından (Çat, Moo, e-poçt) istifadə mühüm rol oynayır. H. Əlyusif oxu bacarığının interaktiv proses olduğunu qeyd edərək bu bacarığı inkişaf etdirmək üçün zəruri olan altı ümumi bacarıq və bilik sahəsini müəyyən etmişdir: 1) avtomatik tanıma bacarıqları, 2) lüğət və struktur bilikləri, 3) formal diskurs strukturu bilikləri, 4) məzmun/dünya fonu bilikləri, 5) sintez və qiymətləndirmə bacarıqları/strategiyaları, 6) metakoqnitiv bilik və 7) bacarıqların monitorinqi (6, s.145).

Oxu bacarığının inkişafında söz ehtiyatı, qrammatik bilik, mətnin başa düşülməsi, şərh olunması mühüm əhəmiyyət kəsb edir.

Oxucular səviyyələrinə görə daha uğurlu, nisbətən uğurlu, zəif olurlar. Daha uğurlu oxucular mətnin məzmununu təxmin etmək, onun strukturunu tanımaq, əsas ideyaları müəyyən etmək, fon biliklərindən istifadə etmək, başa düşməyə nəzarət etmək və mətnə reaksiya vermək kimi ümumi strategiyalardan istifadə edir. Onlar mətni gözdən keçirməklə skan edirlər. Nisbətən az uğurlu oxucular fərdi sözlərə, xüsusən də feillərə diqqət yetirirlər.

Oxumaqda çətinlik çəkən tələbələr, bir qayda olaraq, oxu tapşırıqları ilə daha az məşğul olur, özlərinə inamları olmur və uğur qazanmadıqları üçün ruhdan düşürlər. Onlara kömək etmək üçün ən yaxşı strategiyalar dekodlaşdırma, rəvanlığın artırılması, qavrayışın təkmilləşdirilməsidir (7, s.76).

E. Bloxa görə, daha uğurlu oxucular oxu bacarığının inkişafında verilmiş məzmunu təxmin etmək, strukturunu müəyyənləşdirmək, əsas ideyaları aşkarlamaq, fon biliklərindən istifadə etmək, başa düşməyə nəzarət və mətnə reaksiya vermək kimi ümumi strategiyalardan istifadə edirlər. Daha az uğurlu oxucular ayrı-ayrı sözlərin və cümlələrin mənasını şübhə altına almaq, nadir hallarda fon biliklərini mətnə inteqrasiya etmək kimi yerli strategiyalara etibar edirlər (8, s.73).

Deməli, uğurlu oxucular idrak, yaddaş, metakoqnitiv strategiyalardan daha çox istifadə edir, nisbətən az müvəffəqiyyətli oxucular, ümumiyyətlə, qrammatik quruluş, səs hərf uyğunluğu, sözün mənası və mətn detalları kimi yerli narahatlıqlara diqqət yetirirlər.

Aktiv fəaliyyət növü olan oxu bacarığını inkişaf etdirmək üçün bəzi prinsiplər nəzərə almalıdır; tələbələr yalnız dilə deyil, oxu mətninin məzmununa cavab verməyə təşviq edilməli, onun məzmunu ilə bağlı fikirlərini bildirmək şansı əldə etməlidir.

Oxu materialını seçərkən müəllim tələbələrin dil səviyyələrinə uyğun oxu tapşırığı üzərində düşünməlidir; oxu qarşıya qoyulan məqsədə uyğun olmalı, auditoriyaya inteqrasiya edilməli, mövzudan müzakirə və sonrakı tapşırıq üçün istifadə etməlidir.

Söz tanıma və başa düşmək üçün tələbədə sürətli oxu təcrübəsi olmalıdır. Bu prinsiplərin qarşılıqlı əlaqəsi nəticəsində sürətli və təkrar oxuma, skan etmə və skimminq kimi fəaliyyətlər inkişaf edirilməlidir. Tələbələr oxumaqdan həzz almalı və onlarda motivasiya hissi yaradılmalıdır.

Beləliklə, oxu fəaliyyətinin öyrədilməsi bir sıra məqsədləri özündə ehtiva edir: öyrənənlərin oxu mətnini qavraması, onların səlis oxucuya çevrilməsi və oxu bacarıqlarının digər dil bacarıqları ilə əlaqələndirilməsi.

Tələbələrin virtual məkanda oxuyub anlamada bir sıra çətinliklərlə üzləşməsinə söz ehtiyatının kasadlığı, qrammatik biliklərin zəifliyi, diqqət çatışmazlığı, mətnin səviyyəsini və s. göstərə bilərik. Məhz bu çətinlikləri aradan qaldırmaq üçün yuxarıda sadaladığımız strategiyaları inkişaf etdirmək olduqca faydalıdır.

**Problemin aktuallığı.** Oxuyub anlama oxucunun linqvistik, dünya haqqında və mövzuya dair əldə edilən biliklərin qarşılıqlı əlaqəsi prosesidir. Onlayn təhsil zamanı onun bir sıra məqsəd və strategiyalarının araşdırılması və dərs zamanı istifadəsi mövzunun aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** Virtual auditoriyada onlayn oxuyub anlama prosesini inkişaf etdirmək üçün semantik xəritəçəkmə, ucadan düşün, eskizdən eskizə və s. strategiyalarının istifadəsinin əhəmiyyəti məqalənin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə təhlil olunan məqsəd və strategiyalar virtual məkanda tələbə və müəllim, gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Situmorang R. The Effect of Semantic Mapping Strategy On Students' Reading Comprehension At The Ninth Grade Students Of SMP Raksana Medan // – Indonesia: Prima Indonesia University. Kairos ELT Journal, – 2017.Vol. 1, №. 2, – s. 49-70.
2. Chin A. Sh. W. & Kartini A. G. The use of think-aloud in assisting reading comprehension among primary school students / A. Sh. W Chin, A. G. Kartini // Journal of Cognitive Sciences and Human Development. Vol. 7, – 2021. № 1, s.10-32.
3. Taffy E.R. Teaching Question Answer Relationships. The Reading Teacher. Wiley. – 1986. Vol. 39, № 6, – s. 516-522.
4. The Handbook of Technology and Second Language Teaching. John Wiley & Sons, Inc., – 2017. – s.503.
5. Grabe, W. Key Issues in L2 Reading Development // In $4^{th}$ CELC Symposium Proceedings, edited by Xudong Deng and Richard Seow, Singapore: National University of Singapore, 2014.
6. Alyousef, H.S. Teaching reading comprehension to ESL/efl learners. The Reading Matriz, Vol. 5, - 2005, № 2.
7. Surmanov, S. The Difficulties Of Reading Among Young Learners İn Online Education / S.Surmanov, O.Ametova, R. Togaymurodova // European Journal of Research and Reflection in Educational Sciences, Progressive Academic Publishing. – UK: – 2020. Vol. 8, № 12.
8. Block, E. The comprehension strategies of second language readers / E. Block. – New York: TESOL Quarterly, – 1986. Vol. 20, s. 463-494.


**E-mail:** aida_khana@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **Ə.Ş. Şirəliyev**
*ped.ü.fəls.dok., dos* **G.X. Şirəliyeva**
**Redaksiyaya daxil olub:** 25.04.2023